# Kəlbəcər -Qalalar muzeyi



**Ramin NƏCƏFLİ**

*Bakı Dövlət Universitetinin"Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrasının dissertantı*

***Azərbaycanın ikinci Qobustanı adlandırılan Kəlbəcər, sözün həqiqi mənasında təbiət muzeyini xatırladır. İnsanınn burada təşəkkül tapması dördüncü geoloji dövrlə bağlıdır. Qədim daş dövrünün məşhur Zar mağarası, arxeoloji abidələri ilə zəngin olan Qaragöl, Zalxagöl, Sultanheydər, Pəriçınqılı, Ayıçınqılı, Taxtadüzü, Qurbağalıçay və.s. yaylaqlarının qaya təsvirləri, eramızdan əvvəl III minilliyə aid yaşayış yeri Kəlbəcərin zəngin maddi mədəniyyət abidələrinin bir hissəsidir. 1968-ci ildən buradakı qaya təsvirləri öyrənilməyə başlanılmışdır. Kəlbəcər inzibati rayon kimi 1930-cu ildə təşkil edilmişdir. Kiçik Qafqazın mərkəzi hissəsində yerləşən bu diyar, qərbdə Ermənistan, şərqdə Ağdam, Xocalı, şimalda Daşkəsən, Göygöl, Goranboy, cənubda Laçın rayonları ilə həmsərhəddir. Ərazisi 3054 kv.km-dir. Ermənistan silahlı qüvvələri tərəfindən 02 aprel 1993-cü ildə işğal edilmişdir. Rayon işğal edilərkən yüzlərlə tarixi abidələr kimi Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi də erməni girovluğunda qaldı. Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi Azərbaycanın qədim, orta, yeni və çağdaş dövrünün araşdırılması baxımından əvəzsiz bir mənbədir. Muzeyin əsası hələ 1980-ci ildə qoyulmuşdu. İlk vaxtlar yararsız bir binada yerləşdiyindən geniş ekspozisiya salonu və eksponat fondunu burada yaratmaq mümkün olmayıb. Odur ki, 1982-ci ildə yeni və dünyaya səs salacaq bir muzeyin bünövrəsi qoyuldu və 23 may 1984-cü ildə təntənəli açılışı oldu.***

Bu muzeydə 3 kabinet, 9 ekspozisiya salonu və 36 minədək bir eksponat fondu yerləşmişdi. Muzeyin çöl divarlarını 2 mindən çox rəng çalarlı daşlar bəzəyirdi. Bu daş xəzinələrinin 10 min rəng çalarlı nümunələri muzeydə nümayiş etdirilirdi.

Muzeyin dəhlizində rayonun Qanlıkənd kəndinin səmtində olan məşhur "Lev"(Lök) qalasının, xalça, kilim və şəddələrin, rayonun xəritəsinin və bir çox eksponatların yaraşıqlı şəkilləri, fotoları və təsvirləri göz oxşayırdı.

***Birinci salonda rayonun təbiəti, bitgi və ağac nümunələri, müxtəlif daşları, dərələri, təpələri nümayiş etdirilirdi. Burada dağların, dərələrin, çayların maketləri elə ustalıqla işlənmişdir ki, bunlar sanki canlı görünürdü.***

Ikinci salon qədim dövrdən xəbər verirdi. Qədim daş dövrünün yadigarı məşhur Zar mağarasının şəkli və mağaranın ətrafındakı kənd əhalisinin muzeyə verdiyi qədim daş dövrünün əmək alətləri, Orta Şurtan kəndindən tapılmış qədim daş dövrünün əmək alətləri, İstisu kurortu yaxınlığındakı qədim insan məskəninin fotoşəkli, bürünc keçi totemi, kilim, heybə və nəmibaşları, Abdullauşağı kəndindən kalafadan aşkarlanmış buynuzdan "ox atan, 5 min ildən çox yaşı olan obsidian oxlar, küp qəbirlərdən aşkar edilmiş dəmir nizə ucluqları, daşdan insan skeleti, 150 milyon il yaşı olan daşlaşmış ilbiz və bu qəbildən olan qədim eksponatlar nümayiş etdirilirdi.

Üçüncü salonda müxtəlif çeşidli xalçalar, gəbələr, kilimlər, palazlar, farmaşlar, asmalıqlar, duz torbaları, xurcunlar, heybələr, qırxlıq qabları, corablar, şallar nümayiş etdirilirdi.

Dördüncü salonda qədim silahlar, o cümlədən qəmə, xəncər, qılınc, gorda, yay-ox, barıt qabı piston qabı, qara tüfəng çaxmağı, qədim məişət əşyaları, mis qab-qacaq(kasa, cam, bölmə, dövrə, sini, məcməyi, sərnic, badya, ağızlıq, sətil, tava, samovar, abi gərdan, aşsüzən) və s.alətlər nümayiş etdirilirdi. Buradakı Dəməşq qılıncı çox qiymətli eksponatlardan sayılırdı.

***Beşinci salon yaşı 100-dən çox olan ağbirçək və ağsaqqallar, rayonun aşıqları, alimləri, şairləri, altıncı salon xalq oyunlarına həsr edilmişdir. Burada tamaşaçılar indiyədək dünyanın heç bir yerinə, o cümlədən ölkəmizin başqa bölgələrinə xas olmayan xalq oyunları ilə - "Yeddi Hünər, "Yeddi Çoban", "Yeddi Pəri", "Yeddi Çapar", "Yeddi Nər", "Yeddi Qaçar", "Yeddi Ovçu", "Yeddi Gəlin", "Kilimarası", "Maraloyunu", "Ayın tutulması", "İynəatma", "Tale" vəs. oyunlarla tanış olurdular.***

***Yeddinci salon keçmiş dövrün kənd təsərrüfatı alətləri xış, kotan, qara kotan dəmir, boyunduruq, ağac və dəmir samlar, həvəndə, işgil, masan, şadara, xəlbir, arı godu, arı səbəti, Səkkizinci və Doqquzuncu salonlar Kəlbəcər rayonunun müasir dövrünə həsr edilmişdir. Muzeyin salonları haqqında verdiyimiz bu məlumatlar ümumiləşdirici xarakter daşıyır. Əslində bu məqalədə Kəlbəcər qalalarının muzeydə necə yer tutduğu, muzey rəhbərliyi tərəfindən hansı işlər görüldüyü, bir sözlə qalaların tədqiqindən söz açacağıq.***

Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi sanki, bir elmlər akademiyasının işini görürdü. Belə ki, muzeyin direktoru böyük alim Şamil Əsgərov bu mədəniyyət ocağını yaratmaqla kifayətlənməmişdi. O, hələ gənclik illərindən bu işə yaxından yanaşaraq daimi axtarışda olub. Elmə məlum olan Kəlbəcər abidələrinin demək olar ki, əksəriyyətinin ilkin tədqiqatçısı Şamil Əsgərov olub. O, muzeyin elmi işçiləri ilə bərabər mərkəzlə əlaqə saxlayaraq arxeoloqları dəvət edərək tədqiqiata ehtiyacı olan tarixi abidələrlə yerində tanış etmişdir. Bu abidələr sırasında el arasında "Lev qalası", "Comərd qalası", "Qaraçanlı qalası", "Qalaboynu qalası", "Zivel qalası", "Mənsim qalası" və. s. qalalar elmi mərkəz səviyyəsində tədqiqatdan kənarda qalmışdır. Bu qalaların nə məqsədlə tikildiyi və son durumu ilə bağlı ayrı-ayrılıqda üzərində dayanaq.

Lev qalası. Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyinin materiallarına görə "Lev" qalası el arasında "Lök" qalası kimi tanınıb. Qalaya ona görə "Lök" adı verilib ki.onun üst tərəfi dəvə boynuna bənzəyir.

Qala ilə bağlı elmi ədəbiyyatda çıxış edən Kəlbəcərli müəllim və şair İdris Verdiyev burada dar ağacı, dustaqxana, dərin su və ərzaq quyularının olduğundan söz açır:

Qala Lev çayının orta axarında, dəniz səviyyəsindən 1850 metr yüksəklikdə, dörd tərəfi sərt qayalıqla əhatə olunmuş düzənlikdə salınmışdır. Qalanın daxili hissəsi üç hektara yaxın sahəni əhatə edir. Qaladan şimal şərqdə Qanlı kəndə doğru bir keçid vardır. Bu abidə iki yaşayış məntəqəsindən ibarətdir. Birinci qala qapısından 100 metr içəridə ikinci qala qapıları və divarları vardır. Çöldəki qalanın yalnız bir qapısı, içəri qalanın isə bir böyük, orta və iki kiçik yan qapıları vardır. Içəri qalanın kiçik qapılarından həmişə istifadə olunmurmuş. Orta böyük qala qapısı isə bayram günləri və rəsmi mərasimlərdə açıq olarmış. İçəri qalanın ortasındakı meydanda dar ağacı, cənub hissəsinin künc tərəfində isə bir otaqdan ibarət tək otaqlıq dustaqxananın kameraları görünür. Qalada diametri 1-3 metr olan sərt vulkanik süxurlu dərin quyular çapılmışdır. Bu quyuların bəzilərində ərzaq malları, bəzilərində isə su ehtiyyatı saxlanarmış. Quyuların divarlarındakı əhəngdən olan narın palçıqlı suvaqlar indiyə qədər qalmaqadır.

***XX əsrin 70-ci illərində "Lev" qalasına baxış keçirən coğrafiyaçı alim Malik Mirzəyev və tədqiqatçı alim Şamil Əsgərov mətbuat səhifələrində çıxış edərək burada arxeoloji qazıntıya, elmi tədqiqat işinin aparılması zəruriliyindənn söz açmışlar. Onların ilkin təəssüratlarına görə bu qala karvan yolu üzərində salınaraq etibarlı keşikçi məntəqəsi ilə təmin edilmişdir. Belə ki, keşikçi yeri ilə qalanın mərkəzi qapısı arasında 1,5 hektara yaxın sahə var. Bura qala divarlarından kənarda ev yerlərinin və yardımçı binaların xarabalaıqlarıdır. Torpaq qatında müxtəlif saxsı nümunələri, sümük və digər əşyalara rast gəlinir. Hər ev yerinin yanında isə dərin quyular qazılmışdır. Yerli əhalinin verdiyi məlumata görə hər dəfə Löh çayı daşanda quyuda suyun səviyyəsi artır. Halbuki çayla qalanı bir-birindən 5-6 km məsafə ayırır.***

Müəlliflər qeyd edirlər ki, qala qapısından 150-200 metr məsafədə süni yolla qazılmış gözətçi yeri elə düzəldilib ki, qalaya çıxarkən onun qarşısından yalnız tək-tək keçmək mümkündür. Həm də gələn adam gözətçinin yerində olub-olmadığını görmür. Əksinə gözətçi buradan keçənləri sərbəst izləyir, lazım gəldikdə bura yaxınlaşanları bir kiçik təkanla qayadan aşağı yuvarlaya bilər. Başqa bir maraqlı cəhət isə arxadan gələn şəxs özündən qabaqkı yoldaşının qalaya keçibkeçmədiyini görmür...Qaladan tapılmış rəngli saxsılar vətənimizdə qədim zamanlardan duluşçuluğun inkişafına bir sübutdur .

Yuxarıda iqtibas gətirdiyimiz məqalə müəlliflərinin tapdıqları 14 ədəd rəngli saxsı qırıntıları qalanın sirlərinin açılmasında böyük əhəmiyyətə malikdir. Bu tapıntılar muzeyuin dəhlizindəki "Lev" qalası guşəsinin altında, müəyyən hissəsi ikinci salonda, qalanları isə eksponat fondunda qorunub saxlanılırdı.

70-ci illərin sonunda Ş.Əsgərov qalaya yenidən baxış keçirib. O, "Lev" qalasının karvan yolları üzərində gözətçilik məqsədilə inşa edildiyinə əmin olub. Bununla belə o, qalanın hansı formada qorunmasına da fikir bildirir. Ş. Əsgərov yazır ki, qayalıqlar üzərində inşa edilmiş qalanın yolu dar cığırdan ibarətdir. Bu cığırın döngəsində kiçik bir gözətçi yeri düzəldilmişdir. Burada qarovul çəkən bir nəfər cığırdan keçmək istəyənləri bir-bir ağacla itələyib uçurum qayadan aşağı sala bilər. Qayanın baş tərəfi qalın qala divarları ilə əhatə olunub. Uçub-sökülən yerləri olsa da, qala əzəmətini saxlamaqdadır. Qalanın içərisində qayalar bir neçə yerdən çapılmış, oyulmuş və nəhəng quyular qazılmışdır. Bu quyularda ərzaq və su ehtiyyatısaxlayırmışlar.

***Qaladan tapılan saxsı parçaların birinin üzərində iki cüyür(əlik) rəsmi vardır. Təsvir olunmuş əliklər üz-üzə dayanmış, onların buynuzları bir-birinə keçərərk ürək forması əmələ gətirmişdir. Ürəyin içərisində isə əlik balaları təsvir edilmişdir.***

***1986-cı ildə yolun bir hissəsini atla, müəyyən məsafəni isə piyada qalxaraq zirvəyə çox çətinliklə çıxan akademik Teymur Bünyadov, bu əzəmətli abidəyə heyran kəsilib.***

**(ardı gələn sayımızda)**

***Qala Lev çayının orta axarında, dəniz səviyyəsindən 1850 metr yüksəklikdə, dörd tərəfi sərt qayalıqla əhatə olunmuş düzənlikdə salınmışdır. Qalanın daxili hissəsi üç hektara yaxın sahəni əhatə edir. Qaladan şimal şərqdə Qanlı kəndə doğru bir keçid vardır. Bu abidə iki yaşayış məntəqəsindən ibarətdir. Birinci qala qapısından 100 metr içəridə ikinci qala qapıları və divarları vardır. Çöldəki qalanın yalnız bir qapısı, içəri qalanın isə bir böyük, orta və iki kiçik yan qapıları vardır. Içəri qalanın kiçik qapılarından həmişə istifadə olunmurmuş. Orta böyük qala qapısı isə bayram günləri və rəsmi mərasimlərdə açıq olarmış. İçəri qalanın ortasındakı meydanda dar ağacı, cənub hissəsinin künc tərəfində isə bir otaqdan ibarət tək otaqlıq dustaqxananın kameraları görünür***